**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№372/4** **29 dekabr 2024-cü il**

**"Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən auditor xidməti göstərilən zamanı ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqinin həyata keçirilməsi üzrə 2025-ci il üçün Plan-qrafik"in təsdiq edilməsi barədə**

Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Palatanın Auditin hüquqi tənzimlənməsi və dövlət orqanlaı ilə iş idarəsi (E.İbrahimov) və Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə şöbəsi (H.Məmmədova) tərəfindən təqdim edilmiş "Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən auditor xidməti göstərilən zamanı ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqlərinin həyata keçirilməsi üzrə 2025-ci il üçün Plan-qrafik"in layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən auditor xidməti göstərilən zamanı ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqlərinin həyata keçirilməsi üzrə 2025-ci il üçün Plan-qrafik" təsdiq edilsin (əlavə olunur).

2. Auditin hüquqi tənzimlənməsi və dövlət orqanlaı ilə iş idarəsinə (E.İbrahimov) və Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə şöbəsinə (H.Məmmədova) tapşırılsın ki:

2.1. 2025-ci il üçün nəzərdə tutulmuş auditor təşkilatları və sərbəst auditorlar tərəfindən auditor xidməti göstərilən zaman ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqlərinin həyata keçirilməsi üzrə "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq vaxtında və keyfiyyətlə həyata keçirilməsi təmin edilsin.

2.2. auditor fəaliyyəti ilə məşğul olmaq üçün Palata tərəfindən verilmiş icazələrinin müddəti bitmiş və ya fəaliyyətləri dayandırılmış Palatanın üzvlərində ƏL/TMM ilə əlaqədar monitorinqlərin aparılması həmin üzvlərin fəaliyyətləri bərpa edildikdən sonra təmin edilsin və bu müddəa Palata Şurasının 2024-cü il 30 sentyabr tarixli 368/3 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında auditor xidməti göstərən şəxslər tərəfindən cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına qarşı mübarizəyə dair qanunvericiliyə riayət edilməsinin monitorinqinin aparılması barədə Qaydalar"a əlavə edilsin.

3. Bu qərarın və "Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən auditor xidməti göstərilən zamanı ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqlərinin həyata keçirilməsi üzrə 2025-ci il üçün Plan-qrafik"in mətnlərinin Palatanın internet səhifəsində və "Auditorun şəxsi kabineti" sistemində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**